# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

19-20 (92-93) 30 noyabr 2017-ci il

İctimai-siyasi qəzet

## İlham Əliyev Tərtər rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə yaradılan şəraitlə tanış olub

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Torpaqlarımızın qorunması və ərazi bütövlüyü uğrunda bu hərbi hissənin şəxsi heyəti də yüksək fədakarlıq göstərib. Onlarla hərbi qulluqçu yüksək fəxri adlara, o cümlədən 8 hərbi qulluqçu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Hərbi hissəyə 2004-cü ildə Ali Baş Komandan tərəfindən döyüş bayrağı təqdim edilib.

Prezident, Ali Baş Komandan İlham Əliyev hərbi hissədə yaradılan şəraitlə tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, 6 hektar ərazisi olan hərbi hissədə qərargah binası, üç əsgər yataqxanası, 360 nəfərlik əsgər yeməkxanası, müxtəlif təyinatlı anbarlar, məişət otaqları və digər infrastruktur bölmələri, 100 maşınlıq avtomobil parkı yerləşir.



Müdafiə naziri Zakir Həsənov cəbhədəki əməliyyat şəraiti barədə Prezident, Ali Baş Komandan İlham Əliyevə ətraflı məlumat verdi.

Bu hərbi hissənin timsalında biz ordumuzda yaradılan yüksək şəraitin şahidi oluruq və bu şərait də öz növbəsində Azərbaycan Silahlı Qüvvələrinin hər zaman öz döyüşkən ruhunu qorumasına imkan verir. Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüş Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşünün ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Ümumiyyətlə, aprel döyüşləri münaqişənin həlli dövründə dönüş məqamı idi. Bütün Azərbaycan cəmiyyətində ruh yüksəkliyinə səbəb olan bu hadisələr bir daha göstərdi ki, xalqımız torpaqlarımızın itirilməsi ilə barışmayıb və heç vaxt da barışmayacaq.



Bu hadisələr bir daha təsdiqlədi ki, Azərbaycanın danışıqlar masasında mövqeyi hər zaman prinsipiallığa əsaslanıb və bu, belə də davam edəcək. Bu prinsipiallıq isə həm də Azərbaycan Ordusunun güclənməsindən keçir. Artıq neçə illərdir ki, bununla bağlı həyata keçirilən islahatlar öz bəhrəsini verir, Silahlı Qüvvələrin döyüş qabiliyyəti gücləndirilir, Ordumuzda vətənpərvərlik ruhu bu gün ən yüksək səviyyədədir. Bununla da millətimizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın silahlı qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

## Tarixi saxtalaşdıranlara qarşı mübarizədə Azərbaycanın mövqeyi dəyişməzdir

Moskvada Müstəqil Dövlətlərin Veteran İctimai Təşkilatları Beynəlxalq İttifaqının növbədənkənar VII Qurultayı və Təşkilatın Əlaqələndirmə Şurasının plenum iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirlər çərçivəsində "Müasir dövrdə 1941-1945-ci illər Böyük Vətən müharibəsi tarixini saxtalaşdıranlara qarşı mübarizənin gücləndirilməsi" mövzusunda elmi-praktiki konfrans təşkil olunub. Konfransda Beynəlxalq İttifaqın sədr müavini Vladimir Tkaçenkonun "1941-1945-ci illər Böyük Vətən müharibəsi tarixinin saxtalaşdırılmasına qarşı mübarizədə veteran təşkilatlarının rolu" mövzusunda məruzəsi dinlənilib.

Tədbirlərdə Azərbaycanı təmsil edən Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilov "Faşizm insanlığa yad ideologiyadır" mövzusunda məruzə ilə çıxış edib. C.Xəlilov çıxışında İkinci Dünya müharibəsində faşizm üzərində böyük Qələbənin əldə olunmasında Azərbaycanın yaxından iştirakından, bəşəriyyətin dəhşətli bəladan xilasında xalqların birgə nailiyyətinə verilən digər töhfələrindən, qanlı döyüşlərdə qəhrəmancasına vuruşan 700 minə yaxın soydaşımızdan 350 mininin həyatlarını itirməsindən danışıb. O, ölkəmizdə 9 May - Qələbə Gününün hər il böyük təntənə




ilə qeyd edildiyini bildirib.

C.Xəlilov tədbir iştirakçılarının diqqətini İkinci Dünya müharibəsinin tarixinin, ümumən tarixin ermənilər tərəfindən məqsədli şəkildə saxtalaşdırılmasına, belə münasibətin yolverilməzliyinə yönəldib, Azərbaycanın bu məsələlərdə tutduğu qəti və obyektiv mövqeyini diqqətə çatdırıb. O deyib ki, Azərbaycanın 20 faizdən çox ərazisini bu günədək işğal altında saxlayan Ermənistan özünün təcavüzkarlıq siyasətini açıq və arxayın şəkildə davam etdirir. Ermənilər bu siyasəti öz faşist sələflərindən, alman faşizminə xidmət göstərmiş erməni cəlladları - general Dro və Qaregin Njde kimi cəlladlardan əxz ediblər. Neçə ildir ki, nəinki ayrı-ayrı şəxslər, hətta Ermənistanın dövlət rəhbərliyi səviyyəsində həmin faşist cəlladların bəraətinə çalışılır. Bununla bağlı artıq neçə ildir ki, biz Azərbaycan veteranları, ümumən cəmiyyəti həyəcan təbili çalır, beynəlxalq ictimaiyyəti erməni faşizminin ifşasına biganə qalmamağa, dünən və bu gün onlar tərəfindən törədilən cinayətləri birmənalı şəkildə qınamağa çağırırıq. Bu barədə müraciət hazırlanaraq Azərbaycan veteranları adından MDB ölkələrinin dövlət və hökumət başçılarına, həmin ölkələrin parlament üzvlərinin elektron ünvanlarına, veteran təşkilatlarına, beynəlxalq qurumlara göndərilib. Ancaq təəssüf ki, bir nəticə yoxdur, əkshalda Ermənistan dövləti təcavüzkarlıq siyasətinə son verər, Azərbaycan torpaqları işğaldan azad edərdi.

C.Xəlilov, həmçinin Azərbaycan Veteranlar Təşkilatının xüsusilə MDB ölkələrinin müvafiq qurumları ilə əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verdiyini, ötən illərdə Təşkilatın bu istiqamətdə fəaliyyətinin daha səmərəli qurulduğunu vurğulayıb. O, göstərilən məsələlərdə fəallığı xalqlarımızın birgə tarixi keçmişi, bu ənənələrin yaşadılmasının mühüm əhəmiyyət kəsb etməsi ilə əlaqələndirib. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizdə veteranlara diqqət və qayğısını beynəlxalq təşkilatların diqqətinə çatdırıb.

Konfransda digər çıxışlarda da tarixi saxtalaşdıranlara qarşı mübarizənin gücləndirilməsinin əhəmiyyəti qeyd olunub və bununla bağlı dünya ölkələrinin veteran təşkilatlarına müraciət qəbul edilib.

Qurultayda təşkilati məsələlərə də baxılıb, müzakirə edilən məsələlər barədə yekdil qərar qəbul olunub.

Respublika Veteranlar Təşkilatının sədri, general-polkovnik Tofiq Ağahüseynov Müstəqil Dövlətlərin Veteranları İctimai Təşkilatları Birliyinin Rəyasət Heyətinin üzvü seçilib.

# Respublika Veteranlar Təşkilatında Konstitusiya günü qeyd edildi

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədri istefada olan general-polkovnik Tofiq Ağahüseynov açdı. Təşkilatın sədri Konstitusiyanın dövlətin bir fenomen kimi mahiyyətini açıqlayan, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin funksiyalarını dolğun əks etdirən, cəmiyyət, şəxsiyyət və dövlət arasındakı qarşılıqlı münasibətləri müəyyən edən ən yüksək hüquqi qüvvəyə malik hüquqi sənəd olduğunu bildirdi. O, həmçinin Azərbaycan Konstitusiyasının dünyanın ən inkişaf etmiş ölkələrinin Konstitusiyaları ilə eyni humanist prinsiplərə əsaslandığını vurğulamış, xalqımızın ikinci dəfə müstəqillik əldə etdikdən sonra belə mükəmməl ali hüquqi sənədin qəbul olunmasını Azərbaycan Respublikasının hüquqi dövlət kimi varlığının əyani sübutu olduğunu qeyd etmişdir.

Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək konstitusiyanın əhəmiyyətindən və onun tarixi inkişafından danışdı. Cəlil Xəlilov: "12 Noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günüdür. Müstəqil Azərbaycanın Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda qəbul edilib. Dövlətin əsas qanunu 1995-ci il noyabrın 27-dən qüvvəyə minib. Artıq 18 ildir, Azərbaycan xalqı böyük fəxrlə noyabrın 12-ni Konstitusiya Günü kimi qeyd edir.

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə respublikanın dördüncü Konstitusiyasıdır. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Konstitusiya quruluşunun tarixi isə SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul olunub. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-in 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılıb. Azərbaycan



müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti meydana çıxdı. Bu məqsədlə o zaman ölkə prezidenti olan ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradıldı, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə çıxarıldı və 1995-ci il noyabrın 12-də referendumda müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu.

Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən ilk Konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. 2002-ci ilin avqustunda və 2009-cu ilin martında referendum yolu ilə Konstitusiyaya əlavə və dəyişikliklər edilib. Azərbaycanda ilk konstitusiya məhkəmə nəzarəti orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi isə 1998-ci il iyul ayının 14-də yaranıb.

Tədbirdə digər çıxış edənlər Konstitusiya gününün əhəmiyyətindən konstitusiyanın xalqın və dövlətin tarixindəki önəmindən danışdılar. Həmçinin Konstitusiyanın hazırlanmasında və qəbul edilməsində fəaliyyəti olan insanların xalqımızın yaddaşında əbədi qalacaqları vurğulandı.

# Suraxanı rayonunda Bayraq Günü münasibətilə tədbir keçirilib

Noyabrın ayının 6-sında Bakı şəhəri Suraxanı rayonunda yerləşən Səttar Bəhlulzadə adına xarici dillər təmayüllü gimnaziyada "Bayraq günü" münasibətilə tədbir həyata keçirilmişdir.



Tədbiri giriş sözü ilə açan Gimnaziyanın direktoru Xəyalə Əhmədzadə qonaqları salamlayıb, vətən və bayraq uğrunda qəhrəmancasına həlak olan insanların hər zaman millətin qəlbində yaşayacağını vurğulamışdır.

Tədbirdə II dünya müharibəsi iştirakçısı Seyfulla Baxışov, Museyib Bağırov, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatın Hərbi vətənpərvərlik şöbəsinin müdiri ehtiyatda olan polkovnik Adil Haqverdiyev və həmin şöbənin mütəxəssisi İsmayıl İsmayılov, həmçinin gimnaziyanın müəllim və şagird kollektivi iştirak edib.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının Hərbi vətənpərvərlik şöbəsinin müdiri ehtiyatda olan polkovnik Adil Haqverdiyev müstəqilliyimizi təcəssüm etdirən Azərbaycanın üçrəngli bayrağının dövlət rəmzi olaraq Azərbaycan Xalq Cümhuriyyəti hökmətinin 1918-ci il 9 noyabr tarixi iclasında qəbul olunduğunu və hər bir Azərbaycan vətəndaşının bayrağımıza, eləcə də gerbimizə və himnimizə ehtiram göstərməsinin vacibliyini qeyd edib.

Çıxış edən Gimnaziyanın direktoru Xəyalə Əhmədzadə tədbirdə iştirak etdiklərinə və çıxışlarına görə qonaqlara dərin minnətdarlığını bildirmişdir.

Tədbir gedişatında gimnaziyanın 4b sinif şagirdlərinin ifasında "Bir dəfə ucalan bayraq, bir daha enməz" rublikası adlı ədəbi-bədii kompozisiya təqdim edilmişdir. Yeniyetmələrin çıxışları tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanmışdır.

Daha sonra ehtiyatda olan polkovnik Adil Haqverdiyev gimnaziyanın direktoru Xəyalə Əhmədzadəyə, 4b sinifinin rəhbəri İradə Məlikovaya Respublika Veteranlar Təşkilatının Fəxri fərmanlarını təqdim etmişdir.

Sonda veteranlarla gimnaziyanın pedaqoji və şagird kollektivi birgə xatirə şəkilləri çəkdirmişdirlər.

***İ. İsmayılov***
***Respublika Veteranlar Təşkilatının Hərbi vətənpərvərlik şöbəsinin mütəxəssisi***

# Son on ayda Mingəçevirin polis veteranları 112 cinayətin açılmasında kömək göstəriblər



Daxili işlər orqanlarının əməkdaşları təqaüdə çıxdıqdan sonra da xidməti davam etdirirlər. Veteranlarımız paytaxtda və bölgələrdə cinayətlərin açılmasında, şəxsi heyətlə təlim-tərbiyə işinin aparılmasında, gənc əməkdaşların peşə vərdişlərinin artırılmasında bilik və təcrübələrini bölüşür, onlara müəyyən tövsiyələr verirlər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ötən 10 ay ərzində Mingəçevir Şəhər Polis Şöbəsi Veteranlar Şurasının üzvləri 112 cinayətin açılmasında, axtarışda olanların tutulmasında, profilaktiki uçotda olanlar tərəfindən törədilə bilən cinayət hadisələrinin və hüquq pozuntularının qarşısının alınmasında müvafiq kömək göstəriblər.

Gənc nəslin sağlam mühitdə, vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onların zərərli vərdişlərdən uzaq tutulması istiqamətində profilaktik tədbirlərin keçirilməsi də daim diqqətdə saxlanılıb.

Şuranın üzvləri 46 sayda məktəb və ictimai təşkilatlarda maarifləndirici çıxışlar ediblər. Müxtəlif təhsil ocaqlarında "Narkomaniyaya yox deyək", "Erkən nikah və onun fəsadları", "Radikal və ekstremal yönümlü dini təriqətlər və onların qanunsuz fəaliyyəti", "Yetkinlik yaşına çatmayanların baxımsızlıq və hüquq pozuntularının profilaktikası", "İnsan alveri və onun qurbanları" mövzularında keçirilən maarifləndirmə tədbirlərində veteranlar şagird, tələbə və ayrı-ayrı kollektivlərdə vətəndaşlar qarşısında çıxış edib, tövsiyələrini veriblər.

# Bakıda dördüncü bayraq festivalı keçirilib

9 noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Bakı İdman Sarayında dördüncü bayraq festivalı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir ulu öndər Heydər Əliyevin Azərbaycan bayrağı haqqında kəlamlarının nümayişi ilə başlayıb.

Festivalda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Fövqəladə Hallar, Daxili İşlər və Müdafiə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin hərbçiləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra bayraq haqqında videoçarx nümayiş etdirilib.

Tədbirdə, həmçinin Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqlarının tarixinə nəzər salınıb və həmin bayraqlar sərgilənib.

Festivalda Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin, bayraq taqımının, xüsusi təyinatlıların nümunəvi çıxışlarından sonra incəsənət ustalarının ifasında konsert proqramı təşkil olunub.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu il noyabrın 17-də Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.



# Azərbaycan bayrağı milli ləyaqət simvolumuzdur



Dövlət Bayrağı Günü münasibətilə Səbail rayonunun idarə və təşkilatlarında, o cümlədən orta və ali təhsil müəssisələrində silsilə tədbirlər keçirilir. Bu tədbirlərdə rayon icra hakimiyyətinin əməkdaşları, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov, veteranlar, gənclər, ictimaiyyət nümayəndələri, rayondakı hərbi hissələrin şəxsi heyəti iştirak edirlər.

RİH-dən AZƏRTAC-a bildiriblər ki, Dövlət Bayrağı Gününə həsr olunmuş növbəti "Bayrağımız – and yerimizdir" adlı ədəbi-bədii tədbir rayonun Bayıl yaşayış sahəsində yerləşən 91 saylı orta məktəbdə təşkil olunub.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin ifası ilə başlanıb.

Sonra məktəbin direktoru Svetlana Zülfüqarova tədbirin məqsəd və əhəmiyyəti barədə məlumat verib. Qeyd olunub ki, Bayrağımız tarixin keşməkeşli yollarından keçib, illərin sınağından çıxıb, müstəqillik uğrunda gedən mübarizələrdə şəhid olmuş minlərlə oğul və qızlarımızın qanına boyanıb. Ona görə də hər bir azərbaycanlı üçün bu bayraq həm də müqəddəsdir.

"Azərbaycan bayrağı milli ləyaqət simvolumuzdur",- Səbail Rayon İcra Hakimiyyətinin nümayəndəsi İsrafil Kərimov qeyd edib ki, onu uca tutmaq, vüqarla dalğalandırmaq hər bir azərbaycanlının şərəf borcudur. Məhz ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində üç rəngli, ay ulduzlu bayrağımız ikinci dəfə 1990-cı il noyabr ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Muxtar Respublikanın bayrağı kimi qəbul edilmiş, daha sonra isə Azərbaycan Respublikası Ali Soveti 1991-ci il fevralın 5-də üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verib.

Prezident İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli Sərəncamı ilə Azərbaycanda Dövlət Bayrağı Günü təsis edilmiş və artıq hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

Tədbirdə çıxış edənlər babalarımızın milli və dövlət kimi varlığımızın sübutu, atalarımızın əmanəti olan, uğrunda minlərlə Vətən övladının canından keçdiyi bayrağımızı uca tutmağı tövsiyə ediblər. Dövlət bayrağımız millətimizin, xalqımızın azadlıq və istiqlal ideyalarının, milli varlığının, bəşər sivilizasiyasında özünəməxsus qədim və çağdaş mədəniyyətə sahib olduğunun təcəssümüdür.

Tədbirdə məktəblilərin ifasında bayrağımıza həsr olunmuş şeirlər, mahnılar səsləndirilib, ədəbi kompozisiyalar nümayiş etdirilib.

# Məltəm Özoral: Azərbaycan xalqının öz qəhrəmanlarına göstərdiyi hörmət və ehtiram alqışa layiqdir

Xətai Rayon İcra Hakimiyyəti və "Azərbaycan Respublikasının Milli Qəhrəmanlarını Tanıtma" İctimai Birliyinin təşəbbüsü ilə rayonun 204 saylı məktəbində milli qəhrəmanlara həsr olunmuş tədbir keçirilib.

Rayon icra hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Qarabağ müharibəsi veteranları, bu müharibədə şəhid olmuş qəhrəman oğulların ailə üzvləri, İkinci Dünya müharibəsinin iştirakçıları, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralın həyat yoldaşı Məltəm Özoral da iştirak edib.

Xətai Rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov tədbirdə çıxış edərək bildirib ki, "Azərbaycan Respublikasının Milli Qəhrəmanlarını Tanıtma" İctimai Birliyi çox əhəmiyyətli bir layihəni gerçəkləşdirir. İctimai Birlik müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş, yağı düşmənlə döyüşlərdə böyük hünər göstərmiş milli qəhrəmanlarımızın şəkilləri əks olunan böyük bir plakatın nəşrinə nail olublar. Onun məramı ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş və əksəriyyətinin qəhrəmancasına həlak olduğu Azərbaycan oğullarını xalqımıza, xüsusilə də gənclərə tanıtmaqdır.



Gənclər bu uca ada layiq olan Vətən övladlarını, onların keçdiyi şərəfli döyüş yollarını, göstərdikləri igidlikləri yaxından tanımalı və öyrənməlidirlər. Tədbirdə aprel döyüşlərindən, Azərbaycanın rəşadətli ordusunun şücaətindən, işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində aparılan bərpa işlərindən, "Böyük qayıdış"ın başlanğıcından danışılıb.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralın həyat yoldaşı Məltəm Özoral tədbirdə çıxış edərək bildirib ki, xalqın öz qəhrəmanlarına göstərdiyi bu hörmət və ehtiram alqışa layiqdir. Türkiyədə də hələ ötən əsrdə baş vermiş məşhur Çanaqqala döyüşünün qəhrəmanlarını böyük sevgi və ehtiramla yad edirlər. Nə qədər ki, millətin belə mərd oğulları var onu heç bir qüvvə, heç bir ordu məğlub edə bilməz.

Təqdimat mərasiminin sonunda Xətai rayonundakı 15 qabaqcıl məktəbə İctimai Birliyin hazırlayıb nəşr etdirdiyi "Azərbaycanın Milli Qəhrəmanları" plakatları və xatirə kitabları təqdim edilib. Qeyd olunub ki, bu əyani vasitələr milli qəhrəmanlarımızın tanıdılmasına, gənc nəslin hərbi-vətənpərvərlik ruhunda böyüməsinə az da olsa öz töhfəsini verəcək.

AZƏRBAYCAN VETERANI

# Azərbaycanın Milli Qəhrəmanı

Qarabağ müharibəsi iştirakçısı, Milli Qəhrəman Azərbaycan oğlu Albert Aqarunoviç Aqarunov 1969-ci il aprelin 25-də Bakının Əmircan qəsəbəsində yəhudi ailəsində anadan olub.

Qarabağ müharibəsi başlayarkən, Aqarunovun evə gəlib cəbhəyə könüllü yazılması xəbərini ailəsinə bildirməsi ailəsində ani çaşqınlıq yaratmışdı. Onun ailə üzvləri bu xəbəri birmənalı qarşılamadı. Onun ailəsi erkən yaşda Aqarunovun həyatını riskə atmasını istəmirdi və dolayısı yolla onu müharibəyə getmək fikirdən çəkindirməyə çalışsa da, Aqarunov cəbhəyə yollandı.



Tank komandiri təyin edilən Albert Aqarunov Şuşada Elçin Məmmədovun başçılıq etdiyi 777 nömrəli xüsusi təyinatlı batalyonda döyüşüb. 1992-ci il may ayının 8-i Şuşaya ilk girməyə cəhd edən erməni tankına flaqman tank kimi şəhərə asılmalı olan "fəxri" erməni bayrağı verilmişdi. Bu tankın komandiri erməni tankçısı olan Qaqik Avşaryan idi.Lakin Avşaryanın 442 nömrəli tankı Şuşaya girməyə cəhd elədiyi anda Albert Aqarunovun 533 nömrəli tankı tərəfindən vurulur. Tankın komandiri Qaqik Avşaryan, sürücü mexanik Aşot Avanesyan, atıcı-artirelist Şahen Sarkisyan elə ilk və son atəşdən maşının kabinəsindəcə məhv edilir. Ermənilər Qarabağ müharibəsindən sonra Avşaryanın yanmış T-72 tankının bərpa edib, onu tünd yaşıl rəngə boyayıb, onun 442 nömrəsini ağ rənglə gövdəsində yazıb, təpənin başında Şuşaya tuşlanmış vəziyyətdə qoyublar.

O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib. Ermənilərin Şuşaya hücumu vaxtı Albert Aqarunov düşmənin 9 tank, 7 ZTR və bir çox texnikanısını məhv edib. Dostlarının dediklərinə görə, düşmənin iki tankı bir-birinə yaxınlaşan zaman Aqarunov bir mərmi ilə iki tankı vurdu. Buna görə bu metod döyüş yoldaşları tərəfindən "yəhudi buterbrodu" adını alıb. Ermənilər onun başına 5 milyon rubl pul mükafatı qoymuşdular.

Aqarunov 8 may 1992-cu ildə Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gəlib və döyüş meydanında həlak olub. Komandir Hacı Əzimovun sözlərinə görə, Aqarunov mövqeyini dəyişərkən öz tankının düz önündə qalmış şəhid əsgər yoldaşlarının cəsədini kənara çəkmək üçün hərbi maşından çıxır. Əvvəlcə tankı düzgün istiqamətə yönəltməsi üçün mexanikinə göstəriş verir. Daha sonra öldürülmüş şəhidlərə tərəf qaçır və cəsədləri kənara çəkən zaman erməni snayperinin gülləsinə tuş gəlir.

Albert Aqarunov torpağa tapşırılanda molla və ravvin eyni vaxtda dua oxuyurdu. Milli Qəhrəmanımız Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir.

Albert ailə qurmamışdı. Subay idi.



Hal-hazırda Bakıda vaxtilə təhsil aldığı 154 nömrəli məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulub. 2015-ci ildə “The Times of Israel” qəzetində amerikalı ravvin İsrail Barukun “Müsəlman torpağında yəhudi əsgəri” məqaləsi Aqarunova həsr olunmuşdur.

2010-cu ildə "Salnamə" sənədli filmlər studiyası "Qarabağ qəhrəmanları" silsiləsindən onun haqda "Dostuma məktub" filmini çəkib. Filmin ssenari müəllifi və rejissoru yəhudi Yefim Abramovdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

# Azərbaycan Milli Qəhrəmanı Yuri Kovalyov



Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Yuri Kovalyov 1965-ci il noyabrın 29-da Göyçay rayonunda rus ailəsində anadan olmuşdur. O, orta təhsillə yanaşı idmana da böyük maraq göstərirdi. 11 yaşında olarkən idman ustası və Azərbaycanın əməkdar məşqçisi Ravil Cəlilovun rəhbərliyi ilə futbol məktəbinin ixtisaslaşdırılmış sinfində sevdiyi idman növünün sirlərinə yiyələnmişdi. Hələ futbol məktəbində oxuyarkən bacarıqlı qapıçı kimi formalaşan Yuri öz çevikliyi ilə yoldaşları arasında fərqlənirdi. O, iki dəfə Bakı çempionu olmuş, Respublika və Ümumittifaq turnirlərində Bakının gənclərindən ibarət yığma komandasının qapısını qorumuşdu.

1981-ci ildə Bakının Nizami rayonundakı 229 saylı orta məktəbi bitirmişdir. 1983-cü ildə Pribaltika hərbi dairəsinin sıralarına çağırılmış, hava desant qoşunlarında xidmət etmiş və 1985-ci ildə ordudan tərxis olunmuşdur. 1987-ci ildə Bakı Qırmızı bayraqlı Qara Dəniz Hərbi Donanmasının 109 saylı Miçmanlar və Praporşiklər Məktəbinə daxil olmuşdur.

O, 1990-cı il sentyabr ayının 15-də Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinə qəbul edilir, Azərbaycanın bir çox döyüş bölgələrində mərdliklə vuruşur. Kovalyov Goranboy rayonunun kəndlərinin azad edilməsində böyük şücaət göstərmişdir. Düşmən tərəfindən "Əsədovun bandası" adlandırılan XTMD-nin əməkdaşları ilə düşmənin rahatlığını əlindən almışdı. Düşmən snayperləri onu dağlar, daşlar arasında da axtarırdı. Başına yüz min rubl qiymət qoyulmuşdu. General Məhəmməd Əsədovun və nazir müavini polkovnik Ramiz Məmmədovun Yuri Kovalyova böyük rəğbəti var idi və Kovalyov onları tez-tez müşayiət edərdi.

1991-ci ilin aprel ayıda döyüş zonalarında fərqlənmiş bir qrup OMONçunu mükafatlandırmaq üçün Daxili İşlər Nazirinin müavini Rəhim Quliyev və nazirliyin şöbə rəisi Həmid Cəfərov XTMD-yə gəlmişdilər. Mərasimdə çıxış edən Həmid Cəfərov 1991-ci il aprel ayının 3-də respublikanın xalq deputatlarından Aydın Məmmədovun, Tamerlan Qarayevin, Ramiz Fətəliyevin və bir sıra rəsmi şəxslərin və özünün vertolyot qəzasına uğramalarından söhbət açaraq vertolyotdakıların xilas olmasında Yuri Kovalyovun yüksək peşə səriştəliyi nümayiş etdirməsini xüsusilə qeyd etdi. Söhbət zamanı Yura ünvanına deyilən təriflər qarşısında təvazökarcasına susdu və sonra qeyd etdi ki, “Mən də azərbaycanlıyam, bu torpağın çörəyini yemişəmsə, suyunu içmişəmsə, ona da xidmət etməliyəm”.

Onun rus olması xarici jurnalistləri təəccübləndirirdi. Yuri Kovalyov Şuşanın Qaladərəsi kəndində Azərbaycan jurnalistlərini müşayiət edərkən, gözlənilmədən ora Ermənistan vertolyotu enmiş və vertolyotdakı xarici müxbirlər onunla görüşmək istəmişlər. Xarici jurnalistlər Kovalyovu suala tutmuşlar:

“- Siz russunuzmu?

- Bəli, mən rusam, Azərbaycan isə vətənimdir”.

O, cəbhə xəttindən anasına göndərdiyi şəklin arxasına "Qarabağ mənim vətənimdir, iftixarımdır, sevincimdir, kədərimdir" kəlmələrini yazmışdı.

1991-ci il 3 oktyabrda digər OMONçu dostları - Sergey Barının, Andrey Kudenin, Aleksandr Abramovla birlikdə Ağdam ərazisində Xocavənddən növbəti tapşırıqdan qayıdanda içində olduqları UAZ-ı ermənilər fasiləsiz olaraq atəşə tuturlar. Yuri Kovalyov həlak olur, Kudenin isə ağır yaralanır. Ermənilər UAZ-a yaxınlaşanda partlayış baş verir. Ölüm ayağında belə bir neçə düşməni məhv edirlər.

Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Yuri Kovalyov Tamara xanım ilə ailə həyatı qurmuş və ömrünün sonuna qədər onunla evli idi. Regina və Yuliya adlı qızı yadigar qalıb.

Bakı şəhərindəki 229 saylı orta məktəb onun adını daşıyır.

Azərbaycan Respublikası prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Yuri Kovalyov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

# General və kolleksiyaçı

Tərcümeyi-halını və Stalinin "oğul ataya görə cavabdehdir" prinsipini nəzərə alsaq, görkəmli sərkərdə, briqada komandiri Cəmşid Naxçıvanskinin mühakiməyə edilməsi üçün xeyli əsas var idi. O, bəy ailəsindən çıxmışdı (o illərin meyarlarına görə, bu, qəbuledilməz sayılırdı). Üstəlik, hərbçinin atası vaxtilə İrəvan quberniyası ərazisində xanlar şurasının başçısı olmuş, müstəqil Araz Respublikasını elan etmiş Cəfərqulu xan Naxçıvanski idi. Amma Naxçıvanskinin əsas "cinayəti" onun istedadlı, peşəkar hərbçi olması idi (üstəlik, bu, irsi məqam idi). Stalin rejimi onlardan çox qorxurdu.

Naxçıvanski məşhur "Vəhşi diviziya"da könüllü vuruşmuş, onun sıralarına 1914-cü ildə, hələ 19 yaşlı yunker kimi qoşulmuşdu. O, çar ordusunda karyerasını sürətlə inkişaf etdirərək, diviziyaya qoşulduqdan yarım il sonra kornet rütbəsinə yüksəlmişdi. 21 yaşında C.Naxçıvanski ilk hərbi mükafatlarla təltif edilmiş, bir neçə Müqəddəs Anna və Müqəddəs Stanislav ordeninə layiq görülmüşdü. 22 yaşında olarkən o, döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə üzərində adı yazılmış Georgi silahı ilə mükafatlandırılmışdı. Bu haqda sənəddə deyilirdi: "31 may 1916-cı ildə Tışkovitse kəndi ətrafında gedən döyüşlərdə iki dəfə yaralanmasına baxmayaraq, düşmənin piyada taqımının atəşi altında rəhbərlik etdiyi 10 süvari ilə hücuma atılaraq düşmənin cərgəsinə zərbə vurduğuna və piyada vzvodunu məğlub etdiyinə görə təltif edilir".



Naxçıvanski üzərində aparılan məhkəmə prosesinə ədliyyə polkovniki Vasili Ulrix başçılıq edirdi. O, insani keyfiyyətlərdən uzaq, qaniçən bir şəxs idi. Stalin məhz belələrinə arxalanırdı. 1935-36-cı illərdə repressiyaların başladığı dövrdə RKP (b) MK Siyasi Bürosunda məhz Ulrix çıxış edərək xəyanətkarlara qarşı münasibətin sərtləşdirilməsini təklif etmişdi. O, tanınmış entomoloq idi - bütün İttifaq üzrə kəpənək kolleksiyası toplayırdı. Bəlkə də, o, iynə ilə həşəratların kartona sancılması ilə tanıdığı zabitlərin ən yaxşılarının öldürülməsi arasında rəmzi paralel aparırdı.

Bəli, Naxçıvanskinin "mühakimə" olunması üçün əsas var idi - əlində silah tutmağı ən yaxşı bacaran şəxslərin məhv edilməsi qarşıya qoyulmuş vəzifə idi. O, hərbi şücaətinə görə Georgi xaçı almış ilk zabitlərdən olmuşdu (bu mükafat yalnız sıravi əsgərlərə verilirdi). 1917-ci ildə Naxçıvanski artıq poruçik kimi bu mükafata yiyələnmişdi. Mükafat ona "1917-ci il iyunun 29-da Kaluşa şəhəri yaxınlığında rəhbərlik etdiyi sotnyanın başında hamıdan öncə düşmənin üzərinə atılaraq, onu panika içərisində qaçmağa vadar etdiyi üçün" verilmişdi.

Onu "mühakimə" etməyə əsas var idi. Çünki 1918-ci ildə artıq polkovnik olan (23 yaşında!) Naxçıvanski Əliağa Şıxlinskinin rəhbərlik etdiyi Zaqafqaziya ordusunun tərkibində idi. Söhbət "ağ hərəkat"ın dağılmasından sonra bir hissəsi yeni yaradılan Azərbaycan Demokratik Respublikasına sadiqlik nümayiş etdirən ordudan gedir.

Onu mühakimə etməyə əsaslar var idi. Çünki o, respublika ordusunun tərkibində Qızıl orduya, "Sentrokaspi diktaturası"na, daşnaklara, hətta ingilislərə qarşı vuruşmuşdu.

İntriqaçı və kəpənək kolleksiyaçısı Ulrix cəmi 15 dəqiqə davam edən məhkəmədən sonra Naxçıvanski barəsində ölüm hökmü çıxardı. C.Naxçıvanski "Azərbaycanın antisovet milli təşkilatlarının fəal iştirakçısı, Azərbaycan milli mərkəzi tərəfindən təşkil olunmuş Hərbi mərkəzin üzvü olmaqda" təqsirli bilinmişdi. İttihama görə o, "Azərbaycanda sovet hakimiyyətinə qarşı çevrilişin hazırlanmasında, Azərbaycanın Sovet İttifaqından ayrılması planının işlənməsində fəal iştirak edib, Azərbaycanda silahlı qiyam planını şəxsən özü hazırlayıbmış... Bundan başqa, Naxçıvanski 1921-ci ildən casusluqla da məşğul imiş".

Bir neçə dəqiqə davam edən və qapalı keçirilən məhkəmədə nə vəkillər, nə də şahidlər var idi.

Şərəfli and!

Əslində isə onun "günah"ını sübut edəcək heç bir dəlil yox idi: proses yalnız Naxçıvanskinin özünün etirafları əsasında qurulmuşdu. Həyatının Sovetlər dönəmini o, hərbi akademiyalarda dərs deməklə, zabitlərin hazırlanması ilə keçirmişdi. Ona qarşı bir dənə də sübut tapılmamışdı və güman ki, belə sübutlar ümumiyyətlə yox idi. Ola bilsin ki, Naxçıvanski yeni hökuməti o qədər də bəyənmirdi. Lakin zabit nəslindən olan bu şəxs şərəfin, andın nə olduğunu yaxşı bilir, onların satqınlıqla bir araya sığmadığını dərk edirdi.

Naxçıvanski 98 gün davam edən dindirmələrdən, işgəncələrdən sonra etiraf ifadəsi vermişdi. Hökmdə "ona məxsus bütün əmlakın müsadirəsi" haqda danışılırdı. Halbuki, C.Naxçıvanski kommunal evdə yaşayırdı və orada dəmir çarpayılar da daxil olmaqla, bütün mebellər dövlətin idi. Ona məxsus olanlar yalnız mükafatlar, binokl, fotoaparat, ov tüfəngi, Naxçıvanski nəslinin irsi qılıncı, həmçinin vəsiqə, buraxılış kağızı, sənədlər, ailə yazışmaları, fotolar idi. Ən maraqlısı isə əmlakın siyahıya alınması zamanı qeyd olunmuş bir cümlədir: "İşə aidiyyatı olmayan və heç bir dəyər daşımayan əmlak məhv edilsin". Görünür, bu dəyərli əşyalar rəhbərlikdən kiminsə xoşuna gəlib və onları sadəcə oğurlayıblar. Axı, hamıya asketizm dərsi keçən bu insanlar, əslində, çoxsaylı şahidlərin (o cümlədən Soljenitsin və Trifonovun da) dediyi kimi, yağ-bal içində yaşayırdılar.

Naxçıvanski Moskva yaxınlığında "Kommunarka - Loza" adlı məxfi qəbristanlıqda adsız məzarda dəfn olunub. Yeri gəlmişkən, bir sıra digər həmvətənlərimiz də həmin məzarlıqda dəfn ediliblər: tanınmış metallurq və xalq komissarı Çingiz İldırım, əkinçilik xalq komissarı Dadaş Bünyadzadə, Bakı şəhər komissarlığının katibi M.A.Nərimanov və 1937-38-ci illərdə həbs edilmiş bir sıra digər görkəmli həmvətənlərimiz.

22 dekabr 1956-cı ildə C.Naxçıvanskiyə ölümündən sonra bəraət verilib. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası qurumun 1938-ci il 26 avqust tarixli qərarını ləğv edərək, cinayət tərkibi olmadığına görə, cinayət işinin dayandırılması haqda qərar çıxarıb.

# Ömrünü xalqına və dövlətinə həsr edən general

II dünya müharibəsi illərində şərəfli yol keçən həmvətənlərimizdən biri də vətənpərvər ruhlu general-mayor Bahadur Məmmədqulu oğlu Hüseynov olmuşdur. 1921-ci ilin dekabrın 15-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub. Onun həyat yolu bu gün hər bir Azərbaycan vətəndaşı üçün örnəkdir.

Fəaliyyəti daim xalqına və dövlətinə xidmət göstərməkdən ibarət olub. O, BöyükVətən müharibəsində döyüşmüş, yaralanmasına baxmayaraq hərbi xidmətini davam etdirmiş, Sovet-Sərhəd qoşunlarının zabiti olaraq ölkənin ucqar regionlarında xidməti vəzifəsini layiqincə yerinə yetirmişdir.



Hələ sovetlər dövründə, illərində ümumimilli liderimiz, mərhum Heydər Əliyevlə birlikdə uzun müddət çiyin-çiyinə çalışmış, ulu öndərlə birgə Azərbaycan xalqı üçün əvəzsiz xidmətlər göstərmişdir.

1941-ci illərdən başlayaraq, Sovet dövlətinin sərhədlərinin qorunması çox ağır bir zamana təsadüf etdiyindən, Qaradənizdən Xəzər dənizinə kimi olan sərhədlərin general Hüseynovun nəzarəti altında qorunmasını xatırladıqda, doğurdan da azərbaycanlı olmağımızla fəxr edirik.

Bahadur Hüseynov ordu sıralarında qüsursuz xidmət göstərdiyindən 1960-cı ildə, Azərbaycan DTK-sinin əməliyyat şöbəsi rəhbərliyinin tələbi və sorğusu ilə sözügedən qurumda işləməyə dəvət olunur.

10 il sonra ulu öndər Heydər Əliyevin qərarı ilə Naxçıvan Muxtar Respublikası DTK-sinin sədri vəzifəsinə təyin edilir. Həmin ildən də Naxşıvan OBKOM- Partiyasının büro üzvü seçilərək ardıcıl olaraq 3 dəfə Naxçıvan Ali Sovetinin deputatı seçilmişdir. 1976-cı ildən şəxsən Heydər Əliyevin göstərişi ilə Azərbaycan DTK-sinin 1-ci müavini vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq general Hüseynov Bakıya qayıdır.

Bahadur Hüseynov işlədiyi müddətdə ona tapşırılan vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacardığına görə, 1978-ci ildə general-mayor rütbəsinə layiq görülür. Özünün də qeyd etdiyi kimi, bu yüksək rütbə ona ümummilli lider Heydər Əliyev tərəfindən təqdim olunur.

Onun fədakarcasına vətəninə xidmət göstərməsi xalqımız tərəfindən yüksək qiymətləndirilmişdir. O, 4 ordenlə, 30 medalla, Rusiya DTK-sinin 3 fərqlənmə döş nişanı ilə, 80 təbrik və fəxri fərmanla təltif olunmuşdur. Leonid Brejnevin Bakıya səfəri zamanı "Brejnev" qolsaatı ilə mükafatlandırdığı Azərbaycanın üç fəal dövlət xadimi arasında Bahadur Hüseynov da olmuşdur.

Xalqımızın sevimli vətənpərvər oğlu general-mayor Bahadur Hüseynov hər zaman bütün sahələrdə aktiv olduğu kimi, yaşa dolduqdan sonra da, veteran vətəndaşlarımız üçün vacib olan işləri həyata keçirdi. O, veteranlara problemlərinin həllinə kömək məqsədilə mərhum general Mustafa Nəsirovla birlikdə 1987-ci ildə Respublika, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Birliyinin yaradılmasına nail oldu.

1993-cü ildə, Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra Böyük Vətən müharibəsi iştirakçılarına dövlət qayğısı bərpa olundu. O vaxtdan başlayaraq Böyük Vətən müharibə iştirakçıları dəfələrlə layiq olduqları yüksək orden və medallarla təltif olundular. Bu ədalətli missiya hazırda cənab İlham Əliyev tərəfindən də uğurla həyata keçirilir. Hər il II dünya müharibəsi iştirakçıları ilə görüşlər təşkil etməklə, veteranlarımızı fəxri adlar, qiymətli hədiyyələrlə sevindirir. O cümlədən general-mayor Bahadur Hüseynov 90 yaşı münasibətilə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Bahadur Hüseynovun timsalında göstərilən bu cür isti münasibət dövlətçiliyimizin və milli kimliyimizin qorunmasına xidmət edən, gənclərimizin vətənpərvərlik tərbiyəsinin formalaşmasına və yüksəlməsinə yönələn bir addımdır.

Bahadur Hüseynovun Respublika Veteranlar Təşkilatının sədri vəzifəsində fəaliyyətə başlaması, müstəqillik qazanan ölkəmizdə iqtisadiyyatın tam formalaşmadığı bir dövrə təsadüf etdiyindən, müvəqqəti maddi çətinliklərlə üzləşən veteranlarımıza köməklik məqsədi ilə şuranın sədri Bahadur Hüseynov öz şəxsi məvacibi hesabına aztəminatlı işçilərə və veteranlara hər ay maddi yardım göstərilməsi haqda sərəncam imzaladı. O, sədr işlədiyi müddət ərzində həmin sərəncamın qüvvədə qalaraq həyata keçirilməsinə nail oldu. B.Hüseynovun bu humanistliyi digərlərinə öz xalqına ədalətlə xidmət göstərməsinin vacibliyini aşılayan ağsaqqal nümunəsidir.

Müasir Azərbaycanın memarı, ümummilli liderimiz Heydər Əliyev dövlətçilik məktəbinin yadigarlarından olan, Azərbaycanın fəxri Bahadur Hüseynovun şəxsiyyəti bugünkü və gələcək gənc nəsillər üçün bir məktəbdir.

Respublika Veteranlar Təşkilatının yaradıcılarından biri olmuş, Təşkilatın məsul katibi və sədrin müavini vəzifələrində işləmiş, daha sonra 1992-ci ildən 2001-ci ilə kimi təşkilatın sədri vəzifəsində çalışmış Bahadur Hüseynov 31 dekabr 2016-cı ildə Bakıda vəfat etmişdir.

Allah rəhmət eləsin!

# Sloveniyanın Maribor şəhərində Mehdi Hüseynzadənin abidəsi açılıb



Noyabrın 17-də Sloveniyanın Maribor şəhərində general Rudolf Mayster adına xatirə parkında Sovet İttifaqı və Sloveniya qəhrəmanı, Azərbaycanın igid oğlu Mehdi Hüseynzadənin abidəsi açılıb.

Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfirliyi, Sloveniya Müharibə Veteranları İttifaqı və Maribor şəhəri meriyasının birgə layihəsi əsasında baş tutan açılış mərasimində Sloveniyadakı diplomatik korpusun, hərbi attaşeliyin nümayəndələri, Sloveniya parlamentinin üzvləri, veteran təşkilatlarının təmsilçiləri, şəhər meriyasının və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirin açılışında qeyd edilib ki, İkinci Dünya müharibəsində sloven xalqı böyük qurbanlar verməli olub. Nasist Almaniyası və faşist İtaliyası arasında bölüşdürülən Sloveniyada yerli əhali, həmçinin “Vermaxt” tərkibində



müharibədə iştirak etmək üçün səfərbərliyə cəlb olunub. Bu da əhali arasında işğalçılara qarşı nifrət və müqavimətin daha da güclənməsinə səbəb olub ki, nəticədə bu torpaqlar partizan hərəkatının ən geniş vüsət aldığı və böyük uğur qazandığı əraziyə çevrilib. Sloveniyanın azad edilməsində misilsiz şücaətlər göstərmiş Mehdi Hüseynzadə (Mixaylo) öz adını sloven xalqının qəlbinə əbədi olaraq həkk edib. Mixaylo fenomeni və misilsiz qəhrəmanlığı yeni nəsillər üçün örnək olmaqla yanaşı, Azərbaycan və sloven xalqları arasında dostluq bağlarının möhkəmlənməsində xüsusi rola malikdir.

Azərbaycanın Avstriya, Sloveniya və Slovakiyadakı səfiri Qalib İsrafilov çıxışında bildirib ki, Mehdi Hüseynzadənin abidəsinin açılışı iki mühüm məqsədə xidmət edir. Qeyd edilib ki, bu abidə İkinci Dünya müharibəsində canından keçmiş bütün döyüşçülərin əziz xatirəsinin əbədiləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, hər iki xalqın ortaq milli qəhrəmanı olan Mehdi Hüseynzadənin abidəsinin Maribor şəhərində ucaldılması Azərbaycan və Sloveniya arasında dostluq münasibətlərini daha da möhkəmləndirəcək. Səfir, həmçinin vurğulayıb ki, bu abidə kompleksi azadlıq uğrunda işğalçılara qarşı mübarizə aparmış qəhrəmanların irsinin gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət daşıyır.

Səfir azərbaycanlı iş adamı Artur Abdinova abidənin Maribor şəhərində ucaldılmasına göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib. O, eyni zamanda, abidənin müəllifi heykəltəraş Seyfəddin Qurbanova hazırladığı əsərə görə və Maribor şəhər meriyasına bu təşəbbüsü dəstəklədiyinə görə təşəkkür edib.

Sonra abidə kompleksinin açılışı olub. Maribor şəhər merinin müavini Saşa Pelko abidənin qarşısında quraşdırılmış rəqəmsal interaktiv lövhənin üzərindəki qırmızı lenti kəsib.

Tədbirdə Maribor şəhərindəki orta məktəblərdən birinin şagirdləri partizanlara həsr olunmuş mahnılar ifa ediblər.

Tədbirin rəsmi açılışından sonra iştirakçılara ziyafət verilib. Həmin gün açılışda iştirak edən Azərbaycan nümayəndə heyəti Maribor şəhərində yerləşən hərbi muzeydə olub, müxtəlif müharibələr dövrünə aid eksponatlarla tanış olublar.

Qeyd edək ki, Mehdi Hüseynzadənin Maribordakı abidəsinin müəllifi görkəmli heykəltəraş, Ukraynanın Xalq Rəssamı, Xarkov Dövlət Dizayn və İncəsənət Akademiyasının heykəltəraşlıq kafedrasının müdiri Seyfəddin Qurbanovdur. Abidənin qarşısında quraşdırılmış rəqəmsal interaktiv tablo dünyada ictimai parklarda açılan ilk rəqəmsal abidələrdən sayılır. İnteraktiv tabloda İkinci Dünya müharibəsi ilə bağlı ümumi məlumatlarla yanaşı, Mehdi Hüseynzadənin həyat və döyüş yolunu əks etdirən bütün məlumatlar öz əksini tapıb. Lövhədəki məlumatlar mütəmadi olaraq yenilənəcək.

***Elgün Niftəli***
***AZƏRTAC-ın xüsusi müxbiri***

# Xətai rayonunda “Vətənin müdafiəsinə hazıram” mövzusunda tədbir keçirilib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Azərbaycan Respublikası vətəndaşlarının hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda yetişmələri istiqamətində mütəmadi olaraq ictimai tədbirlər təşkil edir.

AZƏRTAC xəbər verir ki, Xidmətin 2017-ci il üçün fəaliyyət planına əsasən, “Vətənin müdafiəsinə hazıram” mövzusunda növbəti tədbir noyabrın 22-də Xətai Rayon İcra Hakimiyyəti ilə birgə keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Heydər parkında Ulu Öndərin xatirəsini dərin ehtiramla yad edib, abidəsi önünə tər güllər qoyublar.

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə rəisi, polkovnik Yusif Mirzəyev bildirib ki, qurum tərəfindən gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı silsilə tədbirlərin keçirilməsi ənənə halını alıb. Xidmət əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu prosesində yaxından iştirak edir. Dövlət Xidməti səfərbərlik və səfərbərlik hazırlığı, Silahlı Qüvvələrin çağırışçılarla komplektləşdirilməsi, gənc neslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində fəal rol oynayır.

Silahlı Qüvvələrimizin bütün göstəricilərə görə düşmən ordusundan dəfələrlə üstün olduğunu deyən Y.Mirzəyev vurğulayıb: “Azərbaycan Ordusu istər nizam-intizam, istər ruh yüksəkliyi, istərsə də texniki imkanlarına görə elə təmin olunub ki, hər zaman düşmənin layiqli cavabını verməyə qadir və buna hazırdır. Əminik ki, Azərbaycan əsgəri tezliklə öz sözünü deyəcək və işğal altındakı torpaqlarımız azad olunacaq”.

Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov çıxışında gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində belə tədbirlərin əhəmiyyətini qeyd edib. O, aprel döyüşlərində əldə olunan parlaq qələbənin cəmiyyətin bütün üzvlərində, o cümlədən gənclərdə vətənpərvərlik hisslərini və döyüş əzmini daha da artırdığını diqqətə çatdırıb. Bildirib ki, aprel döyüşləri dövlət-xalq-ordu birliyinin sarsılmazlığını və qələbəyə qəti inamı nəinki düşmənə, bütün dünyaya göstərdi.



Digər çıxış edənlər də “Vətənin müdafiəsinə hazıram” mövzusunda keçirilən tədbirin əhəmiyyətindən və Dövlət Xidmətinin gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi ilə bağlı gördüyü işlərdən danışıblar. Qeyd edilib ki, bu cür tədbirlərin keçirilməsində məqsəd güclü ordu quruculuğu prosesinin əhəmiyyətini ictimaiyyətə çatdırmaq və gənc nəsli milli dövlətçilik ruhunda tərbiyə etməkdir.

Mərasimdə şəhid ailələrinin üzvləri, veteranlar, çağırışaqədərki hazırlıq rəhbəri, eləcə də çağırışaqədərki hazırlıq fənni üzrə yüksək nailiyyət göstərən şagirdlər mükafatlandırılıblar.

Sonda vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlı və Xətai rayonunun müxtəlif məktəblərinin şagirdləri konsert proqramı ilə çıxış ediblər.

# Hər bir gənc vətənpərvər olmalıdır!

Respublika Veteranlar Təşkilatının Gənclərin hərbi vətənpərvərlik şöbəsinin müdiri ehtiyatda olan polkovnik Adil Haqverdiyev və baş mütəxəssis ehtiyatda olan polkovnik-leytenant Adil Babaşov Bakı şəhəri Nizami rayonunda yerləşən 109 saylı tam orta məktəbdə keçirilən tədbirdə iştirak etmişdirlər. Tədbir gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə təşkil edilmişdir. Görüşdə RVT-nın nümayəndələri eləcə də, Nizami rayon Veteranlar Təşkilatının sədri Y.Ağayev, 109 saylı məktəbin müəllim və şagird kollektivi iştirak etmişdir.



Tədbiri giriş sözü ilə məktəbin direktoru Füzuli Xudiyev açdı. Şagirdlərlə veteranların görüşünün əhəmiyyətindən, məktəbdə həyata keçirilən vətənpərvərlik tərbiyəsi haqqında qonaqlara məlumat verdi.

Respublika Veteranlar Təşkilatının əməkdaşı A.Haqverdiyev görüşdə çıxış etmiş, erməni təcəvüzkarlarına qarşı aparılan mübarizədən, bir sıra strateji yüksəkliklərin, azad edilməsində hərbçilərimizin göstərdiyi igidlik və rəşadətdən danışmışdır. Həmçinin Ali Baş Komandan cənab İlham Əliyevin orduya göstərdiyi xüsusi diqqət və qayğı, Aprel döyüşləri və onun nəticələri haqqında şagirdlərə məlumat vermişdir.

Məktəbin hərbi müəllimi ehtiyatda olan kapitan İbrahim İsmayılov məktəbdə hərbi təhsilin önəmindən, Azərbaycan xalqının



qəhrəman oğullarının igidliklərindən danışdı. Goranboy, Çaykənd və digər yaşayış məntəqələri ətrafında gedən şiddətli döyüşlər zamanı ehtiyatda olan polkovnik A.Haqverdiyevin yaşayış məntəqələrinin azad olunmasında müstəsna fəaliyyəti olduğunu bildirdi.

Tədbirdə A.Babaşov, Y.Ağayev və digərləri çıxış etdilər. Onlarda öz növbələrində gəncləri vətənpərvər olmağa vətəni göz bəbəyi kimi qorumağa çağırdılar.

Sonda veteranlar məktəbin müəllim və şagird kollektivi birgə xatirə şəkili çəkdirdilər.

# Astaranın vətənpərvər oğlu Rafiq Əliyev

Əliyev Rafiq Hacıağa oğlu 1947-ci il dekabr ayının 7-də Astara şəhərində müəllim ailəsində anadan olmuşdur. Atası Hacıağa Əjdər oğlu Əliyev 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçısı, 1-ci qrup əlil olmuşdur. Müharibədən qayıdandan sonra Astara rayonunda rus dili müəllimi işləmişdir. Anası Səkinə Paşa qızı Məcidova isə Astara rayon Mərkəzi Uşaq Kitabxanasının müdiri vəzifəsində çalışmışdır.

Rafiq Əliyev 1965-ci ildə Astara şəhər 1 saylı orta məktəbi bitirmişdir. 1966-cı ildə SSRİ Silahlı Qüvvələrində hərbi xidmətə çağırılmış və Volqoqrad şəhərinə göndərilmişdir. 1968-ci ilin dekabrında hərbi xidmətdən tərxis olunmuşdur.

1969-cu il Daxili işlər orqanında işə qəbul olunan və fəaliyyətində nümunəviliyi ilə seçilən Rafiq Əliyev Qanunun aliliyini əsas tutaraq vətəndaşların hüquq və azadlıqlarının qorunmasına hörmətlə yanaşmışdır.

1977-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstutunu, 1987-ci ildə SSRİ DİN Volqoqrad Ali İstintaq Məktəbini müvəffəqiyyətlə bitirmişdir. O, 1992-1993 - cü illərdə Cəbrayıl rayonunda erməni təcavüzkarlarına qarşı aparılan döyüşlərdə iştirak etmişdir.

1993-cü ildə Ulu öndər Heydər Əliyevin sərəncamı ilə Astara rayon polis şöbəsinin rəisi İbrahim Quliyev, Astara fövqəladə rayonun hərbi komendatı təyin olunmuş, Rafiq Əliyev isə komendatın müavini-qərərgah rəisi vəzifəsində xidmətini davam etdirmişdir. 1969-1999-cu ilə qədər o, Daxili İşlər orqanlarında, 1999-2001 -ci illərdə Astara rayon İcra Hakimiyyətində hüquq şöbəsinin müdiri, 2002-ci ildən 2016-cı ilə kimi Astara rayon TKQ-da hüquqşünas vəzifəsində işləmişdir.

Müharibə və silahlı qüvvələr veteranıdır. 2012-ci ildə Astara rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri seçilmişdir. Sədrlik etdiyi rayon Veteranlar Təşkilatının 1000 nəfərə yaxın üzvü vardır. Onlardan 10 nəfəri BVM iştirakçısıdır. İki nəfərin yaşı 100-ü ötmüşdür. Rafiq Əliyev sədr kimi onlarla daima əlaqə saxlayır, problemlərinin həllinə köməklik göstərir.

2014-2017- cı illərdə “Novruz” bayramı, “ 9 may Qələbə günü” və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-94 illiyi ilə əlaqədar iclaslar, toplantılar keçirmiş, 31 nəfər veterana maddi yardım verilməsini təşkil etmişdir. Onun təşkilatçılığı və Astara rayon İcra Hakimiyyəti başçısının dəstəyi ilə Tarix Diyarşünaslıq Muzeyində, Əyləncə Mərkəzində, məktəblərdə və hərbi hissədə veteranlarla görüşlər keçirilmiş, veteranların ad günləri qeyd edilmiş, hədiyyələr təqdim olunaraq, çay süfrəsi təşkil edilmişdir.

Rafiq Əliyev 40 ilə yaxın Daxili İşlər orqanlarında qüsursuz xidmət etmişdir. Onun xidməti yüksək qiymətləndirilmişdir. O, polkovnik-leytenant rütbəsində, rayon



polis şöbəsinin rəis müavini vəzifəsindən təqaüdə çıxmışdır. Polisdə 10, 15, 20 illik qüsursuz xidmətlə əlaqədar hər üç dərəcəli medala və digər medallarla təltif olunmuşdur.

Silahlı qüvvələr veteranı Rafiq Əliyevin 7 dekabr 2017-ci ildə 70 yaşı tamam olur. Ona can sağlığı, xoşbəxtlik və fəaliyyətində uğurlar arzulayırıq.

***Ağagül Qasımov***
***Əmək veteranı, Respublika Jurnalistlər Birliyinin üzvü***

## 1941-1945-ci illər müharibə veteranları xatırlanarkən...

İkinci dünya müharibə veteranı, 172-ci atıcı diviziyasının kəşfiyyatçısı, igid həmyerlimiz Məmmədov Əlipaşa Səfər oğlu 1924-cü ildə Ağsu rayonunun Zərqava kəndində anadan olmuşdur.

1941-ci ildə məktəbi bitirdikdən sonra 1942-ci ilin yanvar ayının 12-də Hərbi Komissarlıqdan könüllü olaraq vətənin müdafiəsi uğrunda döyüşlərə qatılmışdır.

1942-ci il aprel ayının 3-də ilk dəfə Moskva uğrunda gedən döyüşlərə qoşulmuşdur. Əlipaşa Məmmədov Smolenski yaxınlığında yaralanaraq qospitala düşmüşdür. Sağalandan sonra yenidən 1-ci Ukrayna cəbhəsinə 172-ci atıcı diviziyasına daxil olub, Dondan başlayaraq 1943-cü il dekabr ayının 3-də Kiyevin azad olunması uğrunda vuruşmuşdur.

Urovinski vilayətinin müdafiəsindən sonra SSRİ baş komandanlığının əmri ilə 172-ci atıcı diviziyası 1-ci Belorusiya cəbhəsinə birləşdirildi. Orada olan 1 ordunu mühasirədən azad etdikdən sonra Xatuni, Reçniça, Qravatiçe kəndlərini, Semyonovka qəsəbəsi azad edilərkən Əlipaşa Məmmədov ağır yaralanmışdır. Sağaldıqdan sonra 1-ci Ukrayna cəbhəsinə göndərilir. Qərbi Ukrayna almanlardan azad edilib, Polşa ərazisinə keçdikdən sonra Varşava, Sandəmir və başqa şəhərlərinin azad edilməsində iştirakına görə, həmin şəhərin fəxri vətəndaşı adına layiq görülmüşdür.

O, Almaniya ərazisində bir sıra şəhərləri azad etdikdən sonra, Berlin uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 02 may 1945-ci il gündüz saat 11-də Berlin şəhərini azad edirlər. 05 may 1945-ci ildə Ali Baş Komandanlığının əmri ilə 1-ci Ukrayna cəbhəsi 172-ci atıcı diviziyası Elba çayını keçərək Çexoslovakiya ərazisində fəaliyyət göstərən alman faşist qoşunlarını məğlubiyyətə uğradılar.

Əlipaşa Məmmədovu müharibədə həlak olmuş bilib, onun Belorusiyanın Svetloqorsk şəhərində büstü qoyulmuşdur. O, hər il “Qələbə günü” ərəfəsində döyüş dostlarının görüşünə gedər və “öz qəbrini” ziyarət edərmiş.

Döyüşlərdə yüksək igidlik göstərən Əlipaşa Məmmədov 1-ci Ukrayna cəbhəsində və Mərkəzi cəbhədə vuruşaraq “Qırmızı ulduz” ordeninə, I dərəcəli Şöhrət ordeninə, II dərəcəli Vətən Müharibəsi ordeninə, igidliyinə görə medala və bir sıra medallara layiq görülmüşdür.

Əlipaşa Məmmədov Praqanın və Berlinin azad edilməsinə görə Ali Komandanlıq tərəfindən dəfələrlə təşəkkürnamə almışdır.

1946-cı ildə ordudan tərxis olunduqdan sonra Ağsu rayonuna qayıdaraq, Nuran kəndində Axundov adına sovxozun ferma müdiri işləmişdir. 1950-ci ildən 1961-ci ilədək Bakı şəhərində “Azərneft” birliyində partiya təşkilat katibi vəzifəsində çalışmışdır. 1961-ci ildən 1978-ci ilədək M.B.Qasımov adına kolxozda, 1978-ci ildən isə Ağsu avtonəqliyyat birliyində sürücü işləmişdir.

Əlipaşa Məmmədov bu gün bizim aramızda yoxdur. Onun əziz xatirəsi bizimlə yaşayır. Allah rəhmət etsin!

***Camaləddin Zeynalov***
***Ağsu rayon Veteran Təşkilatının sədri***

# "Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu"

Azərbaycan Respublikası "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondu, İkinci dünya müharibəsində, Əfqanıstanda və başqa xarici ölkələrin ərazisində xidməti vəzifələrini yerinə yetirib, hərbi əməliyyatlarda iştirak edərkən sağlamlıqlarını itirmiş beynəlmiləlçi əlil döyüşçülərə maddi, mənəvi, sosial və tibbi-reabilitasiya sahəsində köməklik göstərmək məqsədilə 16 fevral 1996-cı il tarixində yaradılmışdır.

"Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondu Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı, "Azərbaycan Əfqanıstan Veteranları" İctimai Birliyi, "Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyi, "Ehtiyatda olan Zabitlərin Konfederasiyası" İctimai Birliyi, "Vətən Müharibəsi Veteranları" İctimai Birliyi, "Qarabağ Əlilləri və Veteranları Cəmiyyəti" İctimai Birliyi, Milli QHT Forumu, "Azərbaycan Əlil Təşkilatları İttifaqı" İctimai Birliyi, "Azərbaycanın Milli Qəhrəmanları Tanıtma" İctimai Birliyi, "Vətən Müharibəsi Əlillərinə Kömək" İctimai Birliyi, "Əsgər Ailəsi" İctimai Birliyi və digər vətəndaş cəmiyyəti qurumları ilə yaxından əməkdaşlıq edir. Fond vətəndaş cəmiyyətinin inkişafında, veteran hərəkatında yaxından iştirak edir və Əfqanıstanda eləcə də, digər xarici ölkələrdə beynəlmiləlçi vəzifələrini yerinə yetirib müharibələrdə iştirak edərkən sağlamlıqlarını itirmiş əlil döyüşçülərə sosial, tibbi-reabilitasiya problemlərinin həllində yaxından köməklik göstərir.

Fond Azərbaycanın inkişafı üçün əlindən gələn köməkliyi dövlətimizdən əsirgəməyərək veteranlar və ehtiyatda olan zabit üzvləri, mədəniyyət nümayəndələri ilə birlikdə döyüş bölgələrinə vətənimizin keşiyində duran hərbçilərimizin görüşünə gedərək, onların döyüş ruhunun yüksəldilməsi, vətəni sevməyi, onu göz bəbəyi kimi qorunması üçün təbliğat işi aparır.

Vətəndaş cəmiyyətinin inkişafında və veteran hərəkatında yaxından iştirak edən Fond şəhid, əlil, veteran və digər qəbildən olan aztəminatlı ailələrin tibbi-sosial problemlərinin həllinə kömək edən uğurlu layihələr həyata keçirir.

Azərbaycan Respublikası "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fondu, Milli QHT Forumu, Əlil Təşkilatları İttifaqı, "Səhiyyədə İctimai Nəzarət Koalisiyası"-nın, Orduya İctimai Nəzarət Birliyinin, Türk Dünyası Veteranları və Şəhid Ailələri Federasiyasının, Dünya Azərbaycanlılarının Konqresinin və "İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Formu"nun üzvüdür.

Fondun həmtəsisçisi və rəhbəri Əfqanıstan, Qarabağ müharibəsinin veteranı Sərraf Vəliş oğlu Orucovdur.

Respublika Veteranlar Təşkilatı ilə yaxından əməkdaşlıq edən "Beynəlmiləlçi Əlil Döyüşçülər" Fonduna gələcək fəaliyyətində uğurlar arzu edirik.

# Böyük Vətən müharibəsində həlak olan azərbaycanlıların sayı saxtalaşdırır: Həqiqi rəqəmlər hara yoxa çıxıb?

Rusiyanın elmi-akademik dairələri Böyük Vətən Müharibəsində döyüşən azərbaycanlıların sayını təhrif edən saxta sənədləri elmi-kütləvi kitablara daxil edirlər.

Böyük Vətən müharibəsində SSRİ-nin insan itkilərinin statistik nəticələrini təqdim edən "Rusiya və SSRİ 20-ci əsrin müharibələrində" adlı kitabda Hitler Almaniyasına qarşı müharibədə səfərbərliyə alınaraq cəbhədə həlak olan azərbaycanlıların sayında ciddi təhrifə yol verilib.

Kitabın "Geridönməz itkilər" bölməsində bu müharibədə həlak olan sovet əsgərlərinin etnik tərkibi göstərilib. Təqdim olunan cədvəldə Böyük Vətən müharibəsi zamanı cəmi 58 min 400 nəfər azərbaycanlı əsgərin həlak olduğu göstərilir.

Ermənilərin bizdən daha çox itki verdiyi qeyd olunub. Onların həlak olanlarının sayı 83 min 700 nəfər, gürcülərin isə 79 min 500 nəfərdir.

Kitab 2001-ci ildə hərb elmləri namizədi, Rusiya Hərbi Elmlər Akademiyasının professoru, general-polkovnik Krivoşeyevin ümumi redaktorluğu altında nəşr olunub. Rusiya imperiyasının və SSRİ-nin iştirak etdiyi müharibələrdəki itkilərin statistik araşdırması əks olunmuş kitab SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivinin üzərindən "məxfi" qrifi götürülmüş sənədləri əsasında hazırlanıb.

Girişdə qeyd olunur ki, "adı çəkilən kitab SSRİ-nin Böyük Vətən Müharibəsində məruz qaldığı əsgər-zabit itkiləri ilə bağlı müxtəlif illərdə çap edilən və dəqiqliyi şübhə doğuran publisistik və memuarların yaratdığı sualları aradan qaldırmaq üçün" nəşr olunub.



Müəlliflər iddia edirlər ki, SSRİ-nin bu sənədlər üzərində "məxfi" qrifini götürməsindən sonra yazılan müxtəlif kitablar özfəaliyyət olub və kitablarda əsasən şəxsi mülahizələr və faktlarla təsdiq olunmayan xatirələr əks olunub: "Bir sıra KİV-lərdə sovet ordusunun itkiləri barədə şübhəli məlumatlar dərc olunur. Bütün bunlar məsələnin əsl mahiyyətinin təhrif olunmasına gətirib çıxarır".

Kitabın müəllif kollektivi 1988-1993-cü illər ərzində sovet ordusu, donanması, sərhəd və NKVD-nin daxili qoşunlarının arxiv sənədləri və digər materialları üzərində kompleks statistik araşdırmalar aparıb.

Bunun üçün ordu generalı S. Ştemenkonun rəhbərlik etdiyi Baş Qərargahın İtkilərin müəyyən edilməsi üzrə komissiyasının nəticələrindən (1966-68) və 1988-ci ildə ordu generalı Qareevin rəhbərliyi ilə Müdafiə Nazirliyi tərəfindən yaradılan analoji komissiyanın yekun nəticələrindən istifadə edilib.

Kitab müəllifləri qeyd ediblər ki, "əsas məqsədləri tədqiqatçılara, KİV-ə və oxuculara SSRİ-nin müharibədəki insan itkiləri ilə bağlı mötəbər məlumatları təqdim etməkdir".

Arxiv sənədlərinin araşdırılmasının nəticələrinə görə, Böyük Vətən müharibəsində (Uzaq Şərqdə 1945-ci ildəki hərbi kompaniya da daxil olmaqla) SSRİ Silahlı Qüvvələrinin insan itkisi 8 milyon 668 min 400 nəfər olub.

Bura müharibənin ilk günündə səfərbərliyə çağırılmış, ancaq hərbi hissəyə çatmamış həlak olan, itkin düşən hərbi mükəlləfiyyətçilər daxil edilməyib. Onların ümumi sayı 500 min nəfərdir.

Rusiya vətəndaşları arasında hərbçilərin itkiləri 6 milyon 535 min 100 nəfər olub. Bu, SSRİ Silahlı Qüvvələrinin ümumi demoqrafik itkisinin 71,3 faizidir.

"Rusiya və SSRİ 20-ci əsrin müharibələrində: Silahlı Qüvvələrin itkiləri" kitabı üzərində iş 10 il davam edib.

Bunun üçün böyük həcmdə içində ilkin və son sənədi saxlayan arxiv sənədləri araşdırılıb. Bu nəticələr hərbi əməliyyatlarda iştirak etmiş hərbi hissələrin siyahıları ilə tutuşdurulub. Sənədlərin analizi əsasında SSRİ ilə faşist Almaniyası arasında insan resursları ilə bağlı balans aparılıb. Bu, itkilərin miqyasını müəyyənləşdirməyə imkan verib.

Kitab elmi-akademik dairələr tərəfindən yüksək qiymətləndirilib və Londonda "Qrinhil Books" nəşriyyatında ingilis dilində çap edilib.

Kitabın hazırlanmasında SSRİ-nin və Rusiya Baş Qərargahının, müxtəlif silahlı qüvvələrin arxiv sənədlərindən istifadə olunub. Bura SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Arxivi, Sovet Ordusunun Mərkəzi Dövlət Arxivi (indiki Rusiya Dövlət Hərbi Arxivi), Rusiya Dövlət hərbi-tarix arxivi, Hərbi Dəniz Donanmasının Mərkəzi Arxivi, Marksizim-Leninzim İnstitutunun Mərkəzi Partiya arxivi və digər rəsmi dövlət arxivləri daxildir.

Qəribədir ki, bu kitabda əks olunan rəqəm Azərbaycanın elan etdiyi rəqəmlərlə daban-dabana ziddir. Hələ SSRİ dönəmində Azərbaycanla bağlı rəsmi sənədlərdə faşistlərlə vuruşmaq üçün 600 min azərbaycanlının hərbi səfərbərliyə alındığı qeyd olunur.




Onların 300 mini döyüş meydanında həlak olub.

İndi bu rəqəmin cəmi 58 min civarında göstərilməsi ciddi mübahisələr doğurur və Azərbaycan tarixçiləri bununla bağlı öz mövqeyini bildirməlidirlər.

***Xaqani SƏFƏROĞLU***
***Strateq.az***

Начало в предыдущем номере

# ЧЕЛОВЕК БОЛЬШОГО МУЖЕСТВА



В последнее время у первокурсников училища и выпускника средней школы № 164 г. Баку Магомеда Аллахвердиева каждый день происходили интересные события. Вчера сдан зачет по морской практике и тем самым поставлена точка на месячном лагерном сборе. Сегодня получили обмундирование первого срока. С каким нетерпением его ждали! Тельняшка в узкую полоску, суконные брюки с откидным клапаном - флотские, белая форменка с синим, окантованным тремя белыми полосками воротником на полсинны и хромовые черного блеска ботинки.

А главное, наконец-то получили курсантские погончики, курсовые знаки, ленту для бескозырки - то есть все атрибуты, совокупность которых определяет внешний вид курсанта Каспийского высшего военно-морского училища. Заветного времени лагерного сбора курсанты и Магомед Аллахвердиев ожидали с нетерпением. После месячного корпения над учебниками всем хотелось отдохнуть, купаться в море, загорать, ходить на шлюпке, играть в волейбол. Как думали первокурсники, именно это их и ожидало. Правда, доходили и другие слухи о предстоящих строевых занятиях, многокилометровых марш-бросках и всяких других трудностях.

Ну, что может быть труднее вступительных экзаменов, - думал Аллахвердиев, как впрочем, и многие другие курсанты. Однако, уже через два- три дня всем стало ясно, что лагерный сбор это не летние каникулы. Оказалось, что всего за месяц необходимо будет изучить уйму чисто военных предметов, о которых раньше и понятия не имели, усвоение которых поможет возможно, быстрее "соскоблить гражданскую чешую" - выражение, ставшее ходовым в курсантской среде. Словом, превратиться из вчерашних школьников в военных людей.

У Магомеда Аллахвердиева быстро определились любимые и не очень - предметы, как например, строевые занятия. Понятия о строе почти у каждого ограничивались командами "смирно", "вольно", "шагом марш!". Оказывается - это целая наука, со своими неожиданными открытиями, которые не каждым сразу постигались. Но зато большинство первокурсников, в их числе Магомед, с большим желанием занимались морской практикой. Их руководитель - худощавый с загорелым лицом, на котором выделялись выгоревшие на солнце усы, - представлялся Аллахвердиеву одним из тех бравых людей, которые бороздили безбрежные просторы, покоряя моря и океаны. Его белая рубашка, залитая светом, как бы гипнотизировала, зачарованные, слушали его курсанты и Магомед, стараясь запомнить каждое слово. Они выбирали такой же славный, трудный, но благородный путь - море. И вот начались тренировки по хождению на шлюпке. Глухая дробь разновременно плюхавшихся в уключины весел показали, что команда курсантами выполнялась плохо. Потому она повторялась еще и еще раз.

Неожиданно скоро пришла усталость, заныла спина, отяжелели руки. "Пора бы и передохнуть, нельзя же грести бесконечно", думал Аллахвердиев и украдкой смотрел на часы - “Пятнадцать минут всего ходим, а кажется целую вечность. Хотя бы минуту паузу сделать.” Но руководитель занятий словно ничего не замечал, только и слышали его мерные: Раз-два! Раз-два! Раз-два! ...Аллахвердиев не знал, как будет через неделю, но в тот день он вымотался здорово. Спина и руки ныли от усталости.

А море пренебрежительно лениво покачивало шлюпку, еще по инерции двигавшуюся вперед. Словно давало понять молодым курсантам, что о наскоку его не возьмешь. Все, в том числе и Аллахвердиев испытывали радость, что сдан первый экзамен на военного моряка, а впереди по курсу ждут безбрежные морские просторы, заполненные настоящей флотской романтикой дней. Немного прошло времени с тех пор как Магомед вместе с другими ребятами впервые поднялся по широкой лестнице к главному зданию училища учебному корпусу. А сколько изменений произошло! Сданы вступительные экзамены, закончен лагерный сбор, принята военная присяга. Часто брала робость: а мыслимо ли все это осилить.

Учеба в училище давалась не легко. Несколько раз Аллахвердиеву довелось побывать в дальних походах. Стоило произнести эти два слова, и у Магомеда начинало трепетно биться сердце. Дальний поход - это бескрайняя ширь морей и океана, это штормы и бессонные ночи, дни, заполненные до отказа тяжелой работой, бесконечными тревогами, учениями, стрельбами, борьбой за живучесть корабля. И курсант Аллахвердиев достойно переносил все трудности этих плаваний. Пять лет учебы в военно-морском училище остались позади. Принято решение идти служить в морпогранохрану на Черное море. Лейтенант Аллахвердиев, как и все молодые офицеры, наряду с выполнением своих основных обязанностей командира БЧ - начал с азов - учился отходить от пирса, швартоваться к нему, вести пограничный корабль по компасу и в строю. Потом перешел к поиску подводных лодок "противника", постановке мин, бомбежке глубинными бомбами. В небольшом экипаже каждый должен уметь заменить своего командира, научиться понимать его с одного слова, с одного жеста. Таков закон больших скоростей. Быстро постигал Магомед командирскую премудрость под руководством своего командира.

У Магомеда Рашид оглы Аллахвердиева морская хватка, спокойствие и невозмутимость в сочетании с мгновенной реакцией. Да и силы так нужной в изнурительных походах на таких кораблях, как пограничный, ему не требовалось занимать. Свободные вечера он проводил на берегу в спортивном зале, отдаваясь волейболу, футболу, теннису. Десятки раз офицер Аллахвердиев ходил в морские походы. Пристроившись за спиной своего командира, он с интересом наблюдал за его действиями. Загорелый, стройный, высокий, он стоял за штурвалом в не застегнутой канадке - настоящий боевой командир. Командир управлял своим кораблем умело, твердо, еле-еле поворачивая штурвал, на ходовом мостике не разговоришься - двигатели ревут, свистит, душит встречный ветер! Нужно в ухо кричать, чтобы тебя услышали. Но если экипаж "сплывался", нет нужды повышать голос! Командира матросы понимают без слов - по взмаху руки, кивку головы, по движению глаз. Причем тот, непосвященный находится рядом, может даже не заметить этих легких, непринужденных жестов. У Аллахвердиева мелькнула мысль: "У этого командира есть чему научиться"... Шло время, Аллахвердиев трудности преодолевал легко, все увереннней чувствовал себя в штурманской рубке, и вскоре в звании старшего лейтенанта стал помощником командира корабля. А еще через два года, когда капитан 3-го ранга Валентин Сычев уволился в запас, Магомеду Рашид оглы было поручено возглавить экипаж пограничного сторожевого корабля, многие годы носившего почетное звание отличного.

С тех пор прошло несколько лет. И Аллахвердиеву было присвоено воинское звание капитан 3 ранга. За это время он окончил Военно-Морскую академию и уже второй год командовал новым сторожевым пограничным кораблем и служил уже не в тех местах, где проходили его лейтенантские годы. В его черную шевелюру невидимая ткачиха времени вложила основу из серебряных нитей. На лбу появились две глубокие бороздки. В основном же Магомед Рашид оглы все такой же молодой, энергичный, с проницательным взглядом черных глаз. И веселый, никогда не забывает своего первого нарушителя. Уже несколько суток корабль утюжил кромку территориальных вод, - привычный патруль. Спокойному плаванию пришел конец, когда задул норд-вест. Командир приказал команде утроить бдительность. Опытный моряк-пограничник Аллахвердиев знал, что именно во время шторма, надеясь на неуязвимость и безнаказанность, у государственной границы особенно часто появляются иностранные рыбаки, а то и другие непрошенные визитеры.

Так и случилось. Вскоре радиометрист доложил:

• По пеленгу 60 градусов, дистанция ... Кабельтовых - неопознанная цель...

И через несколько минут вновь последовал четкий доклад:

• Цель пересекает линию границы, входит в наши воды...

-Есть - отозвался на доклад командир корабля. - Продолжать наблюдение.

Примкнув к тубусу станции, он увидел высвеченную электронным лучом развертки, большую ярко отсвечивавшуюся точку. Цель пересекала линию государственной границы.

• Руль право 15! На румб сто восемьдесят! - скомандовал командир - Машинам предельные обороты!

Сторожевик резко сменил курс и направился в сторону нейтральных вод. Начался отсекающий маневр. Пройдя около мили, корабль резко развернулся и пошел на задержание. Теперь нарушитель оказался в западне.

• Боевая тревога! Корабль к задержанию! Осмотровой группе приготовиться к высадке! Командиру осмотровой группы на мостик,

- снова подал команду командир.

Экипаж корабля в предельном напряжении застыл, ожидая очередных команд командира.

• Катер к спуску!

Экипаж действовал молчаливо и четко. Все это неоднократно отрабатывалось на тренировках и учениях.

Катер уже подготовлен к спуску. Командир осмотровой группы, Магомед Рашид оглы, после инструктажа командиром корабля, возглавил осмотровую группу. Еще мгновение и на мостик последовал доклад о готовности осмотровой группы к высадке.

Командир помолчал секунду и добавил:

• Думается мне, что эта шхуна прибыла к нам не только за рыбой. Не случайно она так рвется к побережью...

Вынырнувший из тумана сторожевик застал иностранца врасплох. Не успели даже обрезать сети. Пограничник спрыгнув на палубу шхуны, приказал всем оставаться на своих местах.

Через некоторое время мичман В.Бондарь доложил командиру осмотровой группы Аллахвердиеву стоявшему в ходовой рубке:

• В трюмах много свежевыловленной рыбы, сети за бортом. Кроме того, в одной из кают обнаружили киноаппаратуру, приспособленную, по всей видимости, для съемки нашего побережья...

Доложив о результатах осмотра командиру корабля, получили приказ объявить капитану шхуны о задержании и находиться на борту судна во время конвоирования в советский порт. А шторм между тем усиливался с каждой минутой. К шхуне уже нельзя было подойти, чтобы передать морякам продукты. Пришлось пограничникам довольствоваться сухим пайком. Двое суток без сна и отдыха моряки находились на борту задержанной шхуны, предотвращая ухищрения и уловки непрошенных "гостей".

За мужество, стойкость и выносливость, проявленные во время задержания иностранного судна в сложных условиях, члены осмотровой группы были награждены медалью "За отличие в охране Государственной границы СССР". Это была первая и, конечно же, очень дорогая для Аллахвердиева награда.

Многократно корабль под командованием Аллахвердиева добивался права участвовать в состязательных стрельбах завоевывая призы имени Героя Советского Союза Григория Куропятникова. Было много и других успехов в боевой и политической подготовке его пограничного корабля. Никогда он не довольствовался достигнутым и всегда уверенно шел к новым достижениям и вел к ним весь экипаж. Немало преуспел Аллахвердиев и в деле воспитания личного состава. И авторитет его в коллективе постоянно был высоким. Это был результат его большой плодотворной работы с людьми. После увольнения в запас Магомед Рашид оглы исключительно добросовестно трудится в Каспийском БАСУ. Вначале мастером, морским инспектором, начальником отдела, а потом помощником начальника управления. За свои боевые и трудовые заслуги М.Р.Аллахвердиев удостоен многих государственных наград, ценных подарков, почетных грамот и благодарностей. Он счастлив тем, что внес достойный вклад в дело бдительной охраны морских границ Родины.

Недавно капитан 3-го ранга запаса отметил свое пятидесятилетие со дня рождения. Ни возраст, ни трудная пограничная служба не сломили его жизненной стойкости и энергии. Видно, прочная закалка дана ему временем, его судьбой. Она надежно держала и ныне держит его, как и других ветеранов его коллектива, в строю. И хочется пожелать Магомеду Рашид оглы, боевому побратиму, оставаться таким же стойким, исключительно трудолюбивым в работе и активным в ветеранской деятельности. Всем ветеранским братством желаем ему счастливого долголетия.

Честь и почет капитану 3 ранга Магомеду Рашид оглы Аллахвердиеву!

Александр Гритченко

# Yazarlar bu mövzuda yeni ədəbiyyat nümunələrinin yaranmasının tərəfdarıdırlar

Böyük Vətən müharibəsi illərində Azərbaycan ədəbiyyatının müxtəlif janrları – poeziya, nəsr, publisistika sahəsində - cəbhədə döyüşən hərbçilərin fədakarlığına həsr olunan əsərlər yazılıb. Bu janrlarda yazılan əsərlər qəhrəmanlığın, vətənpərvərliyin əsas təbliğat vasitəsi kimi insanlarda döyüşkənlik ruhu formalaşdırmaqla bərabər, onlarda yüksək mənəvi keyfiyyətlər aşılamağa xidmət edib.

Artıq Böyük Vətən müharibəsi mövzusu müasir yazıçılar üçün aktual deyil. Onlar bu mövzuya tarixin qatlanan bir səhifəsi kimi baxırlar.

Mövzunun ədəbiyyatımızda davam etdirilməsinə zərurətin olub-olmaması ilə bağlı "Müzakirə"də verdiyimiz suallara eşidilən cavablar əslində bu mövzuda yazmağa ehtiyac olduğunu üzə çıxardı.

“Yeni əsərlər yazılmalıdır”

«600 mindən çox azərbaycanlı Böyük Vətən müharibəsində həlak olub. Nə qədər insan şikəst qayıdıb, nə qədəri itkin düşüb. O da bizim taleyimiz idi. Sovet İttifaqı adlı dövlətin ümumi taleyindən özümüzü fərqləndirə bilməzdik»- deyən yazıçı Nəriman Əbdürrəhmanlının fikrincə, Böyük Vətən müharibəsi adlandırdığımız dəhşətli hadisələr Azərbaycan ədəbiyyatında çox az və səthi işlənib. Belə ki, İsmayıl Şıxlının «Cəbhə hekayələri», Hüseyn Abbaszadənin «General» romanı və s. əsərləri saymaq olar: "Əslində həmin hadisələr yazıldığı dövrün ab-havasında qələmə alınmışdı. Yəni həqiqəti üzə çıxarmaq olmazdı. Hadisələr sovet ədəbiyyatına şamil edilən prinsiplər əsasında yazılmışdı. Sonradan bildik ki, Rusiyada və dünyada müharibə haqqında yazılan əsərlərdə nə qədər dəhşətli gerçəkliklər varmış. Təbii ki, onlar bizim ədəbiyyatımızda əks olunmayıb». N.Əbdürrəhmanlının fikrincə, son illər ədəbiyyatımızda müharibə mövzusu demək olar ki, yoxdur: «Varsa da, mən elə bir ədəbiyyata rast gəlməmişəm. Təbii ki, bu, xoşagəlməz hadisədir. Çünki həmin müharibə ata-babalarımızın taleyindən keçib, həyatımıza təsir göstərib. Biz həmin qərəzli hadisələri kənara qoyub bu mövzuda yaza bilərik”. Hazırda ölkəmizdə Qarabağ müharibəsinin gediyini bildirən nasirin fikrincə, bu müharibənin gerçəklikləri başqadır: "Bu gerçəkliklər də bir müddət üzərindən keçəndən, dərk olunandan sonra daha yaxşı yazılacaq. Əgər Böyük Vətən müharibəsinə «Bizim müharibə deyildi» prinsipi ilə yanaşsaq, onda belə çıxır ki, sovet quruluşu da bizim deyildi, bu, bizə məcburən qəbul etdirilmiş bir quruluş idi və həmin quruluşda nə vardısa, hamısından imtina etməliyik. Əslində, bu yanaşma düzgün deyil. İnsan da, yurd da, toplum da taleyindən qaça bilməz. Bu da bizim taleyimiz idi». Yazıçı hesab edir ki, ölkəmizdə müharibə mövzusunda yazılan əsərləri yenidən çap etmək lazımdır: «Bu əsərlərin içərisində nə qədər sovet ideologiyası olsa da, heç olmasa oxucular bizim taleyimizə düşən son müharibələrin millətimizin həyatında necə rol oynadığından xəbərdar olarlar. Bilərlər ki, o müharibələr bizim üçün hansı yaralar qoyub. Bu baxımdan həmin əsərlərin təkrar çapına ehtiyac var. Əgər cəsarəti çatanlar varsa, yeni baxışla həmin mövzuda yeni əsərlər yazmalıdır. Ancaq bu bizim ədəbiyyatın indi çatışmayan cəhətlərindən biridir».

Müharibə antologiyası

Tənqidçi Vaqif Yusiflinin fikrincə, Böyük Vətən müharibəsi mövzusu ədəbiyyatımızda kifayət qədər işıqlanıb: "Müharibə başlayanda Azərbaycan da Sovet İttifaqının tərkibində müharibədə iştirak edib və minlərlə insan itirib. Xalqlar dostluğu ideyası, beynəlmiləlçilik və vətən anlayışı, SSRİ anlayışı kimi mövzular hamını könüllü olaraq cəbhəyə yollayırdı. Səməd Vurğun:

«Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən»

- deyə yazırdı. Böyük şairin bu iki misrası həmin 5 ilin Azərbaycan ədəbiyyatında şair və yazıçılarımızın şüarı oldu. Sonradan ayrı-ayrı janrlar üzrə əsərlər yarandı. Azərbaycan döyüşçülərinin igidliyini, qəhrəmanlığını göstərən şeirlər meydana çıxdı. Səməd Vurğun, Süleyman Rüstəm azərbaycanlı əsgərlərin qəhrəmanlığını vəsf etdilər. Onların yazdığı elə şeirlər var ki, indi də əhəmiyyətini itirməyib”. V.Yusifli bildirir ki, Süleyman Rüstəmin «Ana və poçtalyon», Məmməd Rahimin «Gün o gün olsun ki, qurtarsın dava» kimi şeirləri müharibədə əsgərlərimiz arasında dildən-dilə gəzib. Həmçinin Mirzə İbrahimovun, Mehdi Hüseynin, Rəsul Rzanın, Ənvər Məmmədxanlının və başqa yazıçı və şairlərin publisistik əsərləri yaranıb: "Bu əsərlərdə müharibəyə səfərbərlik əhval-ruhiyyəsindən tutmuş faşizmin yer üzünə ləkə gətirməyi, dünyanı işğal etmək niyyəti əks olunurdu. Nəsr əsərləri isə bir qədər gec yarandı. Mehdi Hüseynin «Fəryad» povesti, Əbülhəsənin, Mir Cəlalın, Əli Vəliyevin hekayələri o zaman Azərbaycan ədəbiyyatında müharibəyə həsr edilən əsərlər idi. Bu əsərlərdə də Azərbaycan əsgərlərinin qəhrəmanlığı vəsf olunurdu. Həmin illər sanki Azərbaycan ədəbiyyatı üçün də müharibə oldu. Bu dərslərdən Azərbaycan ədəbiyyatı yaxşı çıxdı”.

V.Yusifli qeyd edir ki, müharibə qurtarandan sonra da bu mövzu ədəbiyyatımızda uzun müddət davam edib: "Müharibədə Azərbaycanın bir çox yazıçı və şairləri qəhrəmancasına vuruşdular. Müharibədən sonra Əbülhəsənin «Dostluq qalası» əsəri yarandı. Bizim müharibə haqqında ən sanballı nəsr əsərimiz bu oldu. Daha sonra Hüseyn Abbaszadənin «General» romanı yazıldı. Təkcə müharibə illərində deyil, ondan sonra da Azərbaycan ədəbiyyatında cəbhənin təsvirini verən əsərlər meydana gəldi. İsa Hüseynovun povestləri bu sırada xüsusi yer tutur. Müharibə mövzusu xüsusilə Azərbaycan ədəbiyyatında böyük sınaq illəri oldu”. Tənqidçinin sözlərinə görə, mərhum akademik Bəkir Nəbiyevin «Böyük Vətən müharibəsində Azərbaycan ədəbiyyatı» monoqrafiyasında Azərbaycanın bütün janrlar üzrə müharibədə keçdiyi yol müəyyənləşdirilib: "Azərbaycan ədəbiyyatı üçün bu müharibədən öyrənmək Qarabağ müharibəsi ilə bağlı böyük faktlar verir. Yəni döyüşmək, intiqam almaq səyi, çağırışlar burda da eşidildi. O müharibənin müəyyən mənada bizim müharibəyə də təsiri oldu. Elə güman edirəm ki, hər hansı bir müharibə ədəbiyyat vasitəsilə işlənməlidir». V.Yusifli də hesab edir ki, vaxtilə Böyük Vətən müharibəsi mövzusunda yazılan əsərlər yenidən nəşr etdirilməlidir: «Bizim bir sıra əsərlər var ki, onlar həmin illərdə çap olunub. Məsələn, «Dostluq qalası» romanında təkcə igidlik vəsf olunmur, həmçinin fərariliyin gətirdiyi ziyanlar da göstərilir. Qarabağ müharibəsində də belə hallar olub. Ona görə də həmin əsərləri yenidən çap etdirmək lazımdır. Həmçinin müharibə antologiyası - poeziya, nəsr, publisistikadan ibarət 5-10 cildlik nəşr hazırlamaq olar ki, indiki gənc nəsil həmin müharibənin necə baş verdiyini, hansı fəlakətlərə səbəb olduğunu bilsin. Bu antologiya müharibə mövzusunda gözəl vəsait ola bilər».

Tarix ədəbiyyatda öz əksini tapmalıdır

Yazıçı-dramaturq Firuz Mustafanın fikrincə, Böyük Vətən müharibəsi bir qədər qlobal xarakterli savaş olub: "O müharibədə müxtəlif xalqlar bir-birinə zidd cəbhələrdə dayanmışdı. Bu mövzu bizim ədəbiyyatımızda müəyyən qədər işıqlanıb. Bununla belə, Böyük Vətən müharibəsi mövzusunun ədəbiyyatda yenə də işıqlanmasına ehtiyac var. Ümumiyyətlə, bütün dünyanın tarixini öyrənməyə ehtiyac var. Çünki bəşəriyyət tarixinə bələd olmadan öz tarixinin keçdiyi yola bələd olmaq mümkün deyil. Böyük Vətən müharibəsi də tariximizin bir hissəsidir. Çünki biz sovetlər birliyinin tərkibində olmuşuq. Bunu inkar edə bilmərik. Ruslar həmin müharibədə təkcə vuruşmayıblar. Sovet İttifaqının 15 respublikasının xalqları həmin müharibədə iştirak edib. Biz də həmin xalqların tərkibində faşizmə qarşı müharibə aparmışıq. Minlərlə insanımız qurban gedib. Təbii ki, tarix ədəbiyyatda öz əksini həmişə tapmalıdır». F.Mustafa deyir ki, indiyə qədər Böyük Vətən müharibəsi mövzusunda Azərbaycan ədəbiyyatında yazılanlar onu keyfiyyətcə qane etsə də, kəmiyyətcə qane etmir: «Çox təəssüf ki, bu mövzuya az adam müraciət edir. Bir sıra yazıçılarımız bu mövzuya toxunublar. İsmayıl Şıxlı, Hüseyn Abbaszadə, Seyran Səxavət, Sabir Əhmədli, Məmməd Oruc, Mövlud Süleymanlı və s. yazıçıların müharibə ilə bağlı əsərləri var. Yaxşı olardı ki, bu mövzuya daha tez-tez və geniş şəkildə müraciət olunsun».

Dramaturq deyir ki, hazırda torpaqlarımızda müharibə gedir və öz savaşımızdan yazmalıyıq: «Mənim «Teatr meydanı» romanım əsasən Qarabağ savaşı haqqındadır. Bir sıra pyeslərimdə də bu problemə toxunmuşam. Hesab edirəm ki, yazarlar Qarabağ müharibəsini daha çox diqqətdə saxlamalıdırlar».

Həm silah, həm də söz müharibəsi

Yazıçı Seyran Səxavət hesab edir ki, müharibədə insanlarda ruh yüksəkliyinin olmasında ədəbiyyat böyük rol oynayıb: "O vaxt sovet xalqında ruh yüksəkliyi vardı. Sovet dövlətini müharibədən qalib çıxaran onun silah-sursatı ilə bərabər, insanlarının vətənpərvərliyi idi. Tankların üstünə «Stalin uğrunda”, "Vətən uğrunda» sözlərini yazırdılar. Bu, çox vacib məsələdir. O zaman bu ruh yüksəkliyinin yaranmasında ədəbiyyat, poeziya böyük rol oynayırdı. Səməd Vurğun, Məmməd Rahim, Süleyman Rüstəm müharibə haqqında, o cümlədən əsgərlərimizin igidliyindən bəhs edən şeirlər yazırdılar. Həm döyüş gedirdi, həm də döyüş haqda əsərlər yazılırdı. Faşizmlə həm silahla, həm də sözlə mübarizə aparılırdı. Ədəbiyyat adamları, incəsənət ustaları cəbhə və döyüş bölgələrində olur, əsgərlərin qarşısında çıxışlar edirdilər. Müharibədən sonra doğulanlar həmin dəhşətləri əsərlərdən, kinolardan öyrənirdilər». Yazıçının fikrincə, müharibə mövzusu yenə də işlənməlidir: "Orada bizim minlərlə insanımız həlak olub, onları unutmaq olmaz. Bu qələbənin əldə olunması üçün nə qədər Bakı nefti işlənibsə, o qədər də ata-babalarımızın qanı axıdılıb. Həmçinin SSRİ-ni müdafiə etməklə biz Azərbaycanı da müdafiə etmişik. O yerdə ki qurban verməyişik, o yer də, zaman da əzizdir. Biz bunu həmişə qeyd etməliyik. Yazarlar da həmişə bu hadisələri diqqətdə saxlamalı və yeni baxışla yeni əsərlər yaratmalıdırlar».

*Təranə Məhərrəmova*

## ELAN

Şuşa rayon Veteranlar Təşkilatının möhür və ştampı itdiyi üçün etibarsız sayılır.

**“Azərbaycan Veteranı” qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, “Azərbaycan Veteranı” qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, “Azərbaycan Veteranı” qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, “Azərbaycan Veteranı” qəzetinə abunə olmaq üçün “Azərmətbuatyayımı” ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*“Azərbaycan Veteranı” qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu: 012** 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə “Azərbaycan Veteranı” qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və “Veteran Nəşriyyatı” mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*